*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (1) 2023*
*https://doi.org/ 10.46868/atdd.2023.*




*Derleme Makalesi | Review article*
*Geliş tarihi |Received : 30.06.2023*
*Kabul tarihi |Accepted: 20.07.2023*
*Yayın tarihi |Published : 25.06.2023*



**Səfayə Naiboba**

*https://orcid.org/0009-0005-0887-1809*
*The head of the "Cultural history of Azerbaijan" associations operating in secondary schools No. 37, 137, 188, 247, 291 of Kyiv city, adaletqasimov56@mail.ru*

*Atıf Künyesi | Citation Info*
Naiboba, S. (2023). Heydər Əliyev 100 Il. Uzun Şərəfli Bır Həyat Dastanı. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 317-

## Heydər Əliyev 100. il Uzun Şərəfli Bır Həyat Dastanı

***Xülasə***

*Xalqımızın xeyirxahlığı, nəcibliyi, dostluqda sədaqəti, qonaqpərvərliyi, humanistliyi həmişə bütün dünya xalqlarına örnək olmuşdur. Heydər Əliyev və Ukrayna əlaqələrinin tarixi unudulmaz faktlarla zəngindir.Sovet hökumətinin ali rəhbərliyində olanda Heydər Əliyev Ukrayna üçün də çox işlər görüb. 2004-cü il iyunun 4-də Kiyevdə Heydər Əliyevin dünyada ilk abidəsinin açılışı zamanı Ukrayna Prezidenti Leonid Kuçma demişdir: "Azərbaycanlı qonaqlarımız heç şübhəsiz bilirlər ki, Heydər sözü qədim türkcədən irəlidə çapan atlı kimi tərcümə olunur". Biz bu məqalədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dünya xalqlarının o cümlədən Ukrayna xalqının yaddaşında unudulmazlığından bəhs edəcəyik.*

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, Türk, Ukrayna, kamil insan*

# Heydar Aliyev 100 Years A Long Glorıous Life Saga

***Abstract***

*The kindness, nobility, loyalty in friendship, hospitality, and humanity of our people have always been an example to the peoples of the world. The history of relations between Heydar Aliyev and Ukraine is rich in unforgettable facts. Heydar Aliyev did a lot for Ukraine when he was in the top leadership of the Soviet government. On June 4, 2004, during the opening of the world's first monument to Heydar Aliyev in Kyiv, President of Ukraine Leonid Kuchma said: "Our Azerbaijani guests know without a doubt that the word Heydar is translated from the ancient Turkish language as galloping horseman." In this article, we will talk about the indelibility of Heydar Aliyev, the national leader of the Azerbaijani people, in the memory of the people of the world, including the people of Ukraine.*

***Keywords:*** *Azerbaijan, Heydar Aliyev, Turk, Ukraine, a perfect person*

## Giriş

Ulu Öndər Heydər Əliyev dedikdə ilk öncə gözlərim önünə bu bir beyt şe"r gəlir:

Bir ud ağacıyam şaxlı budaqlı
Bir qaya daşıyam sinəm bulaqlı
Getsəm bu dünyadan sözlü soraqlı
Bənzətmə bir şirin xəyala məni
Əqidəm yetirib kamala məni.

Doğrudanda bu insan bir xəyal deyil bu bir reallıqdır, bir məktəbdir, bir memardır. Xalqı üçün içindən yanaraq ətrafını qoruyan əfsanəvi Ud ağacıdır. Bu böyük düha haqqında söz demək sadə bir müəllim üçün nə qədər çətindirsə o qədər də şərəflidir.

Heydər Əliyev kamil bir insan portretidir ki, hər kəs öz aspektindən baxsa öyrənəcəyi çox şey tapar. Şəxsən mən bir sadə müəllim kimi gənc nəslə Heydər Əliyevin aşağıdakı cəhətlərini aşılamağa çalışıram. Ulu öndər Heydər Əliyevin həyat yoluna nəzər salsaq bir Türk oğluna xas olan bütün cəhətləri görərik. Bu liderin gələcək nəslinin onun həyat yolunu öyrənməyə ondan ibrət götürməyə çox ehtiyacı var. Biz müəllimlər yetişdirdiyimiz gələcək nəsilləri Heydər Əliyev ideyaları ilə yetişdirməliyik ki, Azərbaycan dünyaya yeni Heydər Əliyevlər bəxş edə bilsin. Gənc nəsil öncə Heydər Əliyev kimi ata-anaya sədaqətli, ailəcanlılığı, vətəni, torpağı, milləti sevməyi, insan əməyinə qiymət verməyi, müdrikliyi təvazökarlığı, əmək sevərliyi, sadəliyi uzaq görən olmağı öyrənməlidir

(http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/99233.htm). Xalqımızın xeyirxahlığı, nəcibliyi, dostluqda sədaqəti, qonaqpərvərliyi, humanistliyi həmişə bütün dünya xalqlarına örnək olmuşdur. Heydər Əliyev və Ukrayna əlaqələrinin tarixi də unudulmaz faktlarla zəngindir.

Sovet hökumətinin ali rəhbərliyində olanda Heydər Əliyev Ukrayna üçün də çox işlər görüb. Bununla əlaqədar bir neçə faktı diqqətinizə çatdırmaq istərdim. 1980-ci illərin sonunda keçmiş Sovet İttifaqında Dunay çayını Dneprlə birləşdirmək üçün daha bir “böyük layihə” yarandı. Amma bu, təkcə Ukrayna üçün deyil, bütün Avropa üçün böyük ekoloji fəlakətlə nəticələndi. Ukraynanın o vaxtkı baş naziri V.Fokin Moskvada heç bir dəstək tapmadan kömək üçün birbaşa Heydər Əliyevə müraciət etdi və o, müəllifləri bu layihədən imtina etməyə razı sala bildi. Bundan əlavə, keçmiş baş nazirin müavini M.A.Orlik Ukraynada mədəniyyət müəssisələrinin abadlaşdırılması ilə bağlı kömək üçün birbaşa Heydər Əliyevə müraciət edir. onun qayğısı sayəsində Kiyev Milli Filarmoniyasının əsaslı təmiri nəticəsində həmin bina bu gündə çox möhtəşəm görünür. Onun köməyi ilə Obolon zavodu da tikilib istifadəyə verilmiş, Uşaq qidası fabriki tikilmiş. Kiyev metrosunun tikintisinə də lazımə diqqət göstərmişdir (https://files.preslib.az/projects/conflict/gl1.pdf). Moskvada fəaliyyəti zamanı Çernobıl faciəsi zamanı Heydər Əliyevin diqqəti hər bir Ukraynalının qəlbində bir humanist insan obrazı yaratmışdır.

Məhz o səbəbdəndir ki, Ukraynada ona həmişə görkəmli dövlət xadimi kimi dərin hörmətlə yanaşılıb. Onun xidmətləri Ukrayna dövlətinin ali mükafatı - Yaroslav Müdri ordeni ilə qeyd olunmuş. Heydər Əliyevə Kiyev şəhərinin fəxri vətəndaşı, Ukrayna Prezidenti yanında Milli Dövlət İdarəçilik Akademiyasının fəxri doktoru fəxri adı verilmişdir. Kiyevdə Azərbaycan Respublikasının Ukraynadakı səfirliyinin yaxınlığındakı park onun adını daşıyır. Hətta Bakıda, Ukrayna dairəsində Heydər Əliyevin abidəsi ucaldılıb (https://files.preslib.az/projects/azdiplomacy/a5_2.pdf).

Sovet hökumətinin ali rəhbərliyində olanda Heydər Əliyev Ukrayna üçün də çox işlər görüb. 2004-cü il iyunun 4-də Kiyevdə Heydər Əliyevin dünyada ilk abidəsinin açılışı zamanı Ukrayna Prezidenti Leonid Kuçma demişdir: “Azərbaycanlı qonaqlarımız heç şübhəsiz bilirlər ki, Heydər sözü qədim türkcədən irəlidə çapan atlı kimi tərcümə olunur" (https://lib.aliyevheritage.org/az/9919393.html). Bu qürurverici ad unudulmaz Heydər Əliyeviç Əliyevin ruhuna, enerjisinə və məqsədyönlülüyünə tam uyğun gəlir. Onun xarakterində iş üslubu bir tərəfdən möhkəmlik və praqmatizmi, digər tərəfdən isə köhnəlmiş

olan hər şeyə qarşı dözümlülüyü öz mübarizliyi ilə üzvi şəkildə birləşdirdi. O, siyasi - realist idi.

Heydər Əliyeviçin həyatı öz xalqına fədakar xidmət rəmzinə çevrildi. O, təşkilatçı kimi bütün istedadını və diplomat kimi istedadını müstəqil Azərbaycanın inkişafında yeni, misilsiz zirvələrə çatmasına yönəldib (http://www.anl.az/el/h/hi_madq.pdf). Onun ardıcıl, balanslaşdırılmış xarici və daxili siyasəti sayəsində Dağlıq Qarabağda hərbi əməliyyatlar dayandırılmış, beynəlxalq ictimaiyyət münaqişənin həllinə cəlb edilmişdir”( https://files.preslib.az/projects/conflict/gl2.pdf). Heydər Əliyevin xatirəsi həm ölkədə, həm də xaricdə yaşayan azərbaycanlıların qəlbindən silinmir, o, Azərbaycan diasporunun atası oldu. Məhz o, Azərbaycan xalqını ayağa qaldıran, ideal və mənəviyyat zirvəsini ucaldan, bu da öz simasını bütün dövrlər üçün milli ideala çevirdi. Heydər Əliyev həmişə milli mənəvi-mədəni dəyərlərin qorunub saxlanması uğrunda mübarizə aparmış, eyni zamanda onların ümumbəşəri dəyərlərlə inteqrasiya yolu ilə zənginləşməsi üçün əlindən gələni etmişdir( https://sonavaliyeva.com/file/book/pdf/1626205945_BITMEYEN%20SOZ%20(3).pdf).

Ulu öndər qardaş Ukraynaya səfəri zamanı Ukraynada yaşayan azyaşlı azərbaycanlılara öz töhvəsini-məsləhətini demişdi. Ulu öndər Vətəndən kənarda yaşayan soydaşlarımız üçün Azərbaycan dili kursları açılmasını qaçılmaz hesab etmiş, dilimizin-dinimizin, milli-mənəvi dəyərlərimizin, poeziyamızın yaşaması üçün gənc nəslə öyrədilməsini tövsiyyə etmişdi. Ulu Öndərimizin bu tövsiyyəsi əsnasında Kiyev şəhərində 5 orta ümumtəhsil məktəblərində (37, 137, 188, 247, 291 saylı məktəblərdə) “Azərbaycan mədəniyyət tarixi” adlı dərnəklər təşkil edildi. Bu dərnəklərin köməyi ilə həmAzərbaycanın gələcəyi olan azyaşlı Azərbaycanlılarımız xalqımızın milli-mənəvi dəyərləri olan dilimizi, dinimizi, poeziyamızı aşılamaqla birlikdə, həmdə yaşadığımız ölkədə “Azərbaycan mədəniyyətini, musiqisini, poeziyasını, milli-mənəvi dəyərlərini, mətbəximizin təbliğinə nail oluruq (https://gdu.edu.az/wp-content/uploads/2022/04/ELMIXBR2021_II.pdf).Göstərilən

Biz məktəblərdə və kitabxanalarda Azərbaycan poeziyası günləri keçirməyə nail oluruq. Bu tədbirlərdə dahi Nizamai Gəncəvinin, İmaməddin Nəsiminin, Füzulinin, Cəməd Vurğunun, Bəxtiyar Vahabzadənin, Mirzə Ələkbər Sabirin, Mirzə Fətəli Axundzadənin, Məmməd Arazın və başqalarının yaradıcılıq yolunu, əsərlərini azyaşlı soydaşlarımız Azərbaycanın mədəniyyətini bütün dünyaya təbliğ etməyə çalışırlar. Qədim və müqəddəs adət-ənənələrlə bəzənmiş “Novruz şənliyimizi” Kiyevdə yerləşən “Uşaq evində” keçirərək valideynlərini itirən uşaqlara həm sevinc, həm də Novruz hədiyyələr bağışlayaraq xalqımızın gözəl adətlərini nümayiş etdiririk. Bütün bu səhnələri görən hərkəs bir söz deyir “Azərbaycan

xalqı nə qədər müdrik xalqdır!”. Bu sözləri eşitmək insana qürur verir, desək azdır!(https://gdu.edu.az/wp-content/uploads/2022/04/ELMIXBR2021_II.pdf

**Nəticə**

Kiyev və Bakı şəhərləri və təhsil idarələri arasında, Kiyev şəhəri 247 saylı orta mətəblə Bakı şəhəri 164 saylı ümumtəhsil məktəbləri arasında Əməkdaşlıq əlaqələrini əks etdirən Müqavilələrin imzalanması və fəaliyyəti də Ukrayna və Azərbaycan xalqlarının gənc nəsli arasında dostluğun təməlidir. Bütün bunlar Ulu Öndərimiz Heydər Əliyevin ideyalarının təzahürüdür. Biz fəxr edirik ki, bu gün Ulu Öndərimizin davamçısı Ali baş komandan İlham Əliyev Ulu Öndərin ən böyük arzusunu həyata keçirdi, 30 ildən çox düşmən tapdağında qalmış Qarabağı azad edərək Öndərimizizin 100 illik yubleyinə ərmağan etdi və Ata vəsiyyətini yerinə yetirmiç oldu.

Bu böyük şəxsiyyət haqqında hələ illər, əsrlər ötəcək qədir bilən Azərbaycan xalqı onun haqqında çoxlu şe”rlər, mahılar, dastanlar yazacaqlar...

Mən isə sadə bir müəllim kimi sözlərimi şair Eldar Həsənlinin bir beyt şe”ri ilə bitirmək istəyirəm:

Qədir bilən hərkəsin qəlbində heykəlin var
Gələcəyin əlini sıxa bilən əlin var
Dünyaya şəfəq saçan nurlu pak əməlin var
Sizə haqdan pay gəlib bu hünər təpər baba
Bütün Türk dünyasının babası Heydər baba!( http://www.anl.az/el/Kitab/2013/Azf-273256.pdf;https://www.academia.edu/13512832/).

**Ədəbiyyat**

http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/99233.htm
https://files.preslib.az/projects/conflict/gl1.pdf
https://files.preslib.az/projects/azdiplomacy/a5_2.pdf
https://lib.aliyevheritage.org/az/9919393.htm
http:/www.anl.az/el/h/hi_madq.pdf
https://files.preslib.az/projects/conflict/gl2.pdf
https://sonavaliyeva.com/file/book/pdf/1626205945_BITMEYEN%20SOZ%20(3).pdf
https://gdu.edu.az/wp-content/uploads/2022/04/ELMIXBR2021_II.pdf
https://gdu.edu.az/wp-content/uploads/2022/04/ELMIXBR2021_II.pdf
http://www.anl.az/el/Kitab/2013/Azf-273256.pdf

https://www.academia.edu/13512832/VAHABZADEN%C4%B0N_B%C4%B0R_%C5%9E